# Uşaq ədəbiyyatı və çağdaş ədəbi proseslər

**(əvvəli 13, 14 və 16 may tarixli saylarımızda)**

M.H.Rüşdiyyənin digər xələfi Əlirza Nabdil Oxtayın "Mən kiçik bir çəyirdək idim", "Yağdı yağışlar", "Yaşıl", "Əl-ələ", "Qaynarca", "Axmaca" "Sığırçın", "Oğlan oxu", "Qurd və şəhər" kimi şeirləri uşaq və yeniyetmələrə ən dəyərli töhfəsidir. Nağılvarı süjetə, təhkiyəyə malik "Qılınc nağılı" şeirində Oxtay elin söz-sov boxçasından qədim bir el məsəlini çağdaş dövrün düşüncə biçimində oxucuya təqdim edir. "Ata ölüm ayağında ikən: Mənim vardan, yoxdan bir qılıncım qalıb təkcə, gətirin vidalaşım. Hər bir kişi ölümə də qılınc ilə getməlidir, - deyib oğlanlarını yanına çağırır. Onlara babalarından miras qalmış qılıncı qorumağı vəsiyyət edir. Nə böyük, nə də ortancıl oğul qılınca yiyə durmur. Lakin kiçik qardaş kiçicik əllərini uzadaraq: - Mənim olsun deyir". Şairin təsvirində kiçik qardaşın qılınca sahib çıxması, həm də onun - kiçik qardaşın timsalında bütün yurd, milli dəyər sevdalılarının vətənə, ana torpağa, tarixi yurd yerlərimizə sahib çıxacağı kimi dərk olunur.

*Uşaqlar, əlizi mənim qəlbimin*
*İstiliyi ilə qızdırın, gedin!*
*Yoxsa soyuq əllər nə edə bilər?*
*Sazaq dan yerində bizi gözləyir,*
*Soyuq əllər ilə aça bilmərik*
*Gələcək günlərin qızıl qapısın.*
*Soyuq əllər ilə çala bilmərik...*

Ə.N.Oxtay "Səttarxan atlıları" şeirində "Gələcək günlərin qızıl qapısı"nı kimlərin açacağını, dan yerinin sökülməsinə, günəşin də doğmasına bənzətdiyi azadlığı kimlərin əldə edib qazanacağını, xalqı əsarətdən kimlərin qurtaracağını da bəyan edir. Göstərir ki, həmin xilaskarlar bu gün "Səttarxan atlıları"dırsa, sabah Zeynəb Paşa, Səriyyə Şahsevənqızı, Firudin İbrahimi, Əlirza Nabdil Oxtay, Mərziyyə Üskülü, Səməd Behrəngi, Bulud Qaraçorlu Səhənd, İbrahim Savalan, Mübariz İbrahimov, Çingiz Mustafayev, Allahverdi Bağırov, general Polad Həşimov və başqalarıdır. Adından da göründüyü kimi, şeir İranda və Güney Azərbaycanda" dalğalanan" Məşrutə inqilabına, hərəkatın lideri Səttarxana və onun silahdaşlarına - atlılarına ünvanlanaraq qələmə alınsa da, aktuallığı baxımından Güney və Quzeyə bölüşdürülmüş bütöv Azərbaycan xalqının bu günü ilə də tamamilə səsləşir. Məşrutə inqilabı faktını - tarixi hadisəni böyük bir ədəbi mövzuya çevirən Ə.N.Oxtay heç nəyin dəyişmədiyini, yurdunun yenə də yağıların əlində olduğunu, zülmün ərşə dirəndiyini oxucularına anladır, onları ölkəni yadların əlindən almağa çağırır. Döyüşkən şair içindəki sızıltı ilə bildirir ki, əgər bu qurtuluşu mənsub olduğu nəsil gerçəkləşdirməzsə, gələcək nəsil, indiki balalar həyata keçirəcək, "gədiklərin qurdların tutub boğacaqdır". Eynilə 2020-ci ilin 27 sentyabr tarixindən başlayaraq düz 27 il qabaq vandalist, təcavüzkar Ermənistan respublikasının havadarlarının - Rus imperiya qoşunlarının köməyi ilə işğal etdiyi əzəli Azərbaycan torpaqlarını - Qarabağı Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə şanlı Azərbaycan ordusunun - igid əsgərlərimizin yağı düşməndən azad edib işğalçı ölkə ilə sərhədlərimiz boyunca "Qurdları tutub boğduqları", yeni tarix yazdıqları kimi... Bu gün Güney Azərbaycanda Uşaq ədəbiyyatı sürətlə inkişaf edir və bu sahədəki vəziyyət könülaçandır. Bu yöndə araya-ərsəyə gəlmiş əsərlərin çapı sahəsindəki mənzərə isə gələcəyə ümidlə baxmağa imkan verir. Çap məhsullarını incələyərkən belə bir nəticəyə gəldik ki, uşaq ədəbiyyatı mövzusu Güney yazarları üçün çox aktual, həm də prioritetdir.

**(davamı növbəti saylarımızda)**

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**